*Hekayə*

# EŞQ



**Səfər Aşır Əraslan**
*Türkiyə*

Almaniyaya iş dalınca getmək adət halını almışdı. Bir çoxları evini, ailəsini Allahın ümidinə buraxıb, oraya çörək dalınca gedirdi. Bu məsələdə Binnazın bəxti gətirmişdi. Onun atası sevimli Binnazını və ailəsini atıb bu axına qoşulmadı. Hər gün meşəyə gedir, göbələk toplayır, əkin- biçinlə külfətini dolandırırdı. Onun ən böyük arzusu övladlarını oxutmaq idi. Uşaqları atasına kömək etmək istəyəndə, deyirdi ki, siz dərslərinizi oxuyun, elm sahibi olun, mən özüm edəcəyəm.

Binnaz məktəbdə çalışqanlığı və yaxşı oxumağı ilə sinif yoldaşları arasında fərqlənirdi. Hər kəs onun parlaq gələcəyi olacağına böyük ümid bəsləyirdi. Hələ körpəliyində belə, o hər şeylə maraqlanan, hazırcavab bir qızcığaz idi. Bütün günü sözləri şirin- şirin tələffüz edir, çoxlu suallar yağdırırdı. Axşamları ailə ocaq başına yığışanda onu danışdırır, gülüşürdülər.

Məktəbə gedərkən, anasının hördüyü qoşa hörüklərini qəribə əda ilə yelləyərək, hamının diqqətini çəkirdi. Onun oxumaq həvəsi bitib tükənmirdi. Bütün günü dərsləri ilə məşğul olan, boş vaxtlarında kitabxanadan bədii kitablar alıb oxuyan Binnazla atası fəxr edirdi.

O, da ata- anasına böyük bir sevgi ilə bağlı idi. Onlardan bir gün də ayrı qala bilmirdi. Dərsləri qurtarar- qurtarmaz, tez avtobusa minir, evlərinə çatmağa səbirsizlənirdi. Amma həmişə ona elə gəlirdi ki, avtobus ləng gedir. Bəzən düşünürdü ki, avtobusdan düşüb piyada getsə, evlərinə daha tez çatar.

Təhslini davam etdirmək üçün atası onu şəhərdə internat məktəbə qoydu. Tətildə evlərinə dönən Binnaz yol kənarındakı otlaqda quzuların analarının arxasınca necə qaçdığını, atılıb - düşdüyünü maraqla seyr edib, özünü o quzulara bənzətdi, gözləri yaşardı.

* * *

Ata- anası üçün möhkəm darıxan Binnaz, valideynlərini həsrətlə qucaqladı. Bir az dincəlib, qonşuluqda yaşayan əmisigilə getmək, onlarla da görüşmək istədi. Əmisinin böyük qızı Leyla "Evlənmə" verilişinə baxırdı, bacısı qədər sevdiyi Binnazı görüncə, sevincindən atılıb düşdü. Bir xeyli söhbət etmişdilər ki, Leyla ondan soruşdu,

- Binnaz, sən hamımızdan savadlısan. Səndən bir şey soruşum, bu elektriklənmə nə deməkdir? Bayaq televiziyada evlənmə proqramında dedilər ki, elektriklənmə olmadığı üçün bir yerdə yaşaya bilmirik.

Binnaz uğunub getdi:

- Bacı, bu o deməkdir ki, hər iki tərəf bir- birinə güvənməli, hiss edib anlamalıdır. Elektriklənmə buna deyirlər.

- Binnaz, mən də elektriklənmə deyincə, Seleni xatırladım. Özünü elektrikə verərək, yanıb kömür olan o qız gəlib durdu gözümün önündə.

Binnazın rəngi qaçdı. Anasının anlatdığı o hadisə yadına düşdü.

* * *

Selen bu sevdasından uzaqlaşsın deyə, onu Ankaraya, qardaşının yanına yollamağı qərara aldılar. Düşündülər ki, həm dedi- qodu azalar, həm də bəlkə, onun ağlı başına gələr. Hətta, atası onu xalası oğluna vermək istədi. Kənddəki söz - söhbətdən qurtuluş yolunu bunda gördü. Onsuz da Selen məktəbdən uzaqlaşmışdı. Lakin Selenin bu işə razı olmayacağından, hətta özünə qəsd edəcəyindən qorxurdu.

Ancaq Selenin könlü qan ağlayırdı, o, Ankaraya getmək istəmirdi. İsmayıl onun gözlərinin önündən bir an belə çəkilmirdi. Nə iki nəsil arasında olan qan davası, nə də yadların tənbehi İsmayılı onun qəlbindən çıxara bilmədi.

Qonşuları İsmayıl onun xəyallarının ağ atlı şahzadəsi olmuşdu. Adı, varlığı könül taxtında başda oturmuşdu. İsmayılın eşqi onun gecəsini gündüzünə qatmışdı, bu sevda onu yandırıb yaxırdı. Onun adını göz yaşlarıyla yollara, divarlara, qapılara yazırdı. İkiyə böldüyü qəlbinin bir tərəfinə öz adını, digər tərəfinə İsmayılın adını həkk etmişdi. Selenin bütün varlığını zəbt edən bu eşq, qızı məhv edirdi. . Ağlını başından alan bu sevgi, onda nə görən göz, nə eşidən qulaq, nə söyləyən dil, nə də çırpınan qəlb qoymuşdu. Dəli- divanə idi. Qəlbində, sadəcə, ona olan eşqi yaşayırdı, qalan hər şey, sanki ölüydü. Hətta, əlifbada da " İ" dən başqa heç bir hərf yoxuydu onun üçün.

Selenin sevdası dillərə düşdü. Kimi ona dəli- divanə, kimi ağlını itirmiş, kimisi də "qara sevdalı" dedi. Ağlını başından alan sevda, onu olmayacaq işlərə vadar edirdi. Saatlarca bir yerdə donub qalırdı.

* * *

Seleni qohumlarının maşınında Ankaraya apardılar. Onun nə qədər dəyərli, qiymətli olduğunu anladan atası, qızını köksünə sıxdı. Selen isə yolboyu onu düşündü, hətta özündən asılı olmayaraq, bir neçə dəfə İsmayılın adını ucadan dilə gətirdi. Artıq kiminsə biləcəyindən ehtiyat etmirdi. O, bu halının nə qədər alçaldıcı olduğunun fərqində belə deyildi.

Qarmaqarışıq duyğular içində çabalayan Selen, nəhayət, yorulub yatdı. Atası onun məsum və körpəlik yağan üzünə uzun- uzadı baxıb göz yaşı axıtdı, - bu işin axırı xeyirliklə qurtarsın, mən pərişanlığa, göz yaşı axıtmağa razıyam,- deyə düşündü.

Selen anasız böyümüşdü. Yoldaşının can verərkən, ağzından çıxan son sözlərini xatırladı:- Qızdan muğayat ol. Selen əmanəti. Selen gözlərini açanda özünü Ankarada gördü. Şəhərin geniş küçələrinə, baş- başa vermiş göydələn binalarına küt nəzərlərlə baxdı. Ankarada yaşamaq bir vaxtlar onun ən böyük arzusu olmuşdu. Gəlibgedən qohumlarından həmişə bu şəhər haqqında danışmalarını xahiş edirdi. Şəhər indi ona çox soyuq və cansıxıcı gəldi. Könül qəhrəmanından uzaqkən, bu arzuların heç bir mənası yox idi. Donuq baxışlarla, hürkək nəzərlərlə ətrafa göz gəzdirdi. Bu dəqiqə onunçün kəndinin ocaq qoxusu verən havası, qoyun- quzu mələrtisi, it hürüşməsi daha doğma, daha əziz idi. Ona kənddə gəzməyi çox gördülər, sevgisini əlindən almağa qalxdılar. Qəfildən hönkür- hönkür ağladı. Atası onun bu acı göz yaşlarını içinə axıtdı.

Nəhayət, qardaşıgilə gəlib çatdılar. Eşidən- bilən qohumlar bir- bir gəlib onunla görüşürdülər. O isə hissiz, sevincsiz salamlaşırdı. Çox üzülmüşdü, böyük bir yükün yorğunuydu. Bu yük kənddə qoyub gəldiyi sevgisinin, eşqinin yüküydü. Sual verənlərə bəzən heç cavab belə vermirdi, saatlara içinə qapanıb qalırdı. Gözləri sanki dil açıb danışır, gələnlərin baxışlarında İsmayılı axtarırdı. Lakin hər kəs onu sonu olmayan, ömründə baş tutmayacaq bu sevdadan xilas etməyə çalışır, cürbəcür əyləncələr təşkil edir, oyunlar uydururdular. Sonunda yaşlı qadınlardan biri dedi ki, o qızın qəlbini dinləmək, onun içindəki sevgini duyub, onunla dərdləşmək lazımdır. Qoy qəlbindəkiləri bizə anlatsın. Bu qırıq, paramparça olmuş qəlbi yenidən bitişdirmək çox çətin olacaq. Amma bir az səbr edin, zaman nə qədər yaraları sağaltdı, bilirsinizmi?

Selen isə gecə - gündüz iztirablar içində İsmayılın xəyalı ilə yanıb qovrulurdu. Bu minvalla bir neçə ay keçdi. Selen yavaş- yavaş yeni həyatına alışmağa başladı. Qohumlarının qızları ilə gəzintilərə çıxırdı. Onun İsmayılı unutduğunu zənn edib, atasına müjdə verdilər. Seleni ərə vermək məsələsini atdılar ortaya. Bir gün Selen qızlarla gəzintidən gəldikdə, qardaşıgildə çoxlu adam gördü. Təlaş içində gözləri qardaşını axtardı. Gəlinləri onu yan otağa çəkib dedi ki, sənə elçi gəliblər. Xalaoğluna verəcəklər səni. Bir azdan atan da gələcək. Selen donub qaldı, səsi çıxmadı. Onun susmasını razılıq əlaməti bilən gəlin sevindi, bu şad xəbəri gələn elçilərə söylədi.

Selenin isə sanki dünyası qaraldı, olan - qalan ümidləri də puç oldu. Düşünürdü ki, qoy atam mənim onu unutduğumu zənn etsin, bəlkə, onda məni kəndə qaytarar, sən demə, onlar başqa şey fikirləşiblər. Acı göz yaşları səssizcə yuvarlanıb üreyinin başını göynətdi....

* * *

Toy günü Selen, hamıdan xəbərsiz qardaşı evindən çıxıb, kəndə üz tutdu. Qızın bu hərəkəti qohumlarda çaşqınlıq yaratmışdı. Atası onu bir müddət dindirmədi, hətta xəstələnib yatağa da düşdü. ..

Selen evdə bir bir ruh kimi dolanırdı. Bir gün evdə heç kim olmayanda o, özünü elektrik naqilinə dolayır. Atası evə gələndə döşəmədə qızının yanıb kömür olmuş cəsədini görür. Bu hadisəyə bütün kənd göz yaşı axıtdı.

Bütün bunları xatırlayan Binnaz dilləndi:

- Bacım, Selenin başına gələnlər onun avamlığından irəli gəlib. Nəfsimizə hakim olmasaq, o, bizi yaxıb yandırar. Hisslərimiz ağlımızın önünə keçməməlidir. Ağlını başına yığıb, hisslərini cilovlamış olsaydı, Selen nə dəli- divanə olar, nə də , özünə qəsd edərdi. O, da oxuyar, yaşamaqdan zövq alardı. Eşq ilə məhv olmağı cəza sayar, mükafat kimi qəbul etməzdi.

Leyla heyran- heyran ona baxır, Binnaz isə davam edirdi, ədəbiyyat müəllimindən eşitdiklərini Leylaya anladırdı:

- Eşqimizi kiçik həzzlər üçün deyil, böyük xoşbəxtliklər üçün istifadə etsək, o bizim qatilimiz deyil, şahımız olar.

Leyla onu möhkəm- möhkəm qucaqladı. Oxumaq, həyatını dəyişdirmək, elm aşiqi olmaq qərarına gəldi.

**Türkcədən çevirən:**
**Nazilə Gültac**